№ 159 (4459) 07 oktyabr 2020-ci il

# Azərbaycan iki cəbhədə vuruşur

## Mübarizənin şərəfi torpaqlarımızın azadlığı ilə ehtiva olunur

Ermənistanın təxribatlarına görə Azərbaycanın başladığı əks-hücum tədbirləri gündən-günə kəskinləşir və dərinləşir. Ölkəmizin haqqının indiyə qədər nə üçün tapdalandığının bir çox gizli mətləbləri əyan olur. Hər bir yeni fakt işğalçıların ifşası üçün yeni əsaslar verir və bu iş zərgər dəqiqliyi ilə yerinə yetirilir. Mübarizənin önündə dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev gedir. Hətta həlledici məqamlarda ağırlığı öz üzərinə götürən ölkə rəhbəri düşmənin və onun havadarlarının üzərində təkbaşına qələbə çalır. Söhbət dünya miqyasında erməniliyin mənfur simasının açılıb göstərilməsindən, İrəvan hərbi-siyasi hakimiyyətinin avantürist mahiyyətinin ifşasından gedir.

Gündəlikdə ordunun hücumuna rəhbərliklə yanaşı digər dövlətlərin başçıları, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri ilə dialoqlar, müzakirələr, habelə xarici informasiya agentliklərinin dəvətilə müsahibələr vermək məsələləri durur. KİV bu gərgin günlərdə Azərbaycan Prezidentinin rasional istifadə etdiyi mübarizə alətidir. Hər gün baş vermişlər və baş verənlər barədə jurnalistlərin müxtəlif səpkili, həm də siyasi tryuklarla zəngin sualları cavablandırmaq çevik və qəti fikirlər tələb edir ki, İlham Əliyev bu missiyanı olduqca mükəmməl və qüsursuz yerinə yetirir. Nəticədə dünya ictimaiyyəti Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizənin məğzini ən xırda detallarına qədər öyrənir və ölkəmizin nə qədər haqlı olduğunu görür.

"Əl-Cəzirə", "Əl-Ərəbiyə", "Habertürk" televiziya kanalları tək ərəb dünyasında yaxud Yaxın Şərqdə yox, beynəlxalq aləmdə tanınan kanallardır. Məsələ burasındadır ki, öz aralarında olan fikir ayrılıqları ucbatından bu gün Ərəb Liqası adlanan dövlətlər birliyinin üzvləri arasında Ermənistana dəstək verənlər var. Heç şübhısız ki, bu amil ilk növbədə Cənubi Qafqaz haqda məlumatların səthilindən və Türkiyənin güclənməsi fonunda bu dövlətə qarşı olmaqla Azərbaycana münasibətdə müvafiq siyasət yürütməyə çalışırlar. Bu səbəbdən "Əl-Ərəbiyə"yə müsahibə vermək səmərəli və aktual bir addımdır. Bəlkə də kanalın sahibləri Azərbaycan prezidentibib cavablarından özlərinə uyğun siyasi fikirlər əldə etmək istəyirdilər. Lakin Prezident İlham Əliyevin müsahibəsi aydın görünür ki, sırf olaraq Qarabağın işğalı, bu işğala son qoymağın yollan və regionda situasiyanın persdpektiv inkişafı ilə tutarlı faktlara əsaslanır. Fgaktlar isə nəinki Ermənistanı, hətta bu ölkənin işğalçılıq siyasətini müdafiə edənlərin ifşasına yol açır.

Təbii ki, jurnalistləri eyni məsələlər maraqlandırır: münaqişə niyə sülh yolu ilə həll olunmadı, döyüşlər niyə alovlandı, Azərbaycanın məqsədi nədir, Minsk qrupunun rolu barədə nə deyə bilərsiniz, hazırda gedən gərgin döyüşlərin xronologiyası və sairə. Bunlar normaldır. Çünki, Ermənistan beynəlxalq aləmə o qədər yalan və saxta informasiya ötürüb ki, heç də hər yanda baş verənlərin mahiyyəti barədə aydın təsəvvürlər yoxdur. Hələ də bəzi cəmiyyətlərdə problemin məğzini tamamilə əksinə düşünürlər. Bu mənada müsahibələrdə Prezident İlham Əliyevin verdiyi cavablar olduqca aktuallıq kəsb edir. Məsələn, ərəb jurnalis elə düşünür ki, regionda situasiya nəzarətdən çıxır. Bu, ermənilərin dezinformasiyasıdır, çünki, məqsədləri odur ki, hər şeyin xaotikliyini bəhanə edib müharibəyə yeni tərəfklər cəlb etsinlər.

"Əl-Ərəbiyə"yə izah olunan mahiyyət: "Hadisələrin nəzarətdən çıxdığını düşünmürəm, vəziyyət Azərbaycan Ordusunun nəzarəti altındadır. Biz hazırda hücum əməliyyatını həyata keçiririk, bizim məqsədimiz ərazilərimizi azad etməkdir. Mən vasitəçilərə təklif etdim və Ermənistan xalqına da müraciət etdim ki, işğala



görə öz hökumətini məsuliyyətə cəlb etsinlər və işğalı dayandırsınlar. Ermənistan buna razı olarsa, demək olar ki, 30 il ərzində qanunsuz olaraq öz nəzarətində saxladığı işğal edilmiş əraziləri boşaltmağa başlasa, müharibə dayanacaq. Bizə müharibə lazım deyil. Biz 1992-ci ildən bəri danışıqlar prosesində iştirak edirdik. Demək olar ki, bu 30 il ərzində danışıqlar masasında sıfır irəliləyiş olmuşdur".

Münaqişənin sona çatmasında uğursuz sülh danışıqları durur. Axı, heç yanda sonsuz danışıqlar formulu yoxdur. Əksinə, danışıqlar nəticə üçün aparılır, əgər nəticə yoxdursa, demək, bu cür danışıqlar, sadəcə, saxtakarlıqdır. Müsahibədə müharibənin başlıca motivi kimi sülh danışıqlarının saxtakar olması üzə çıxarılır. Dünya ictimaiyyəti də anlamalıdır ki, 30 il danışıq aparmaq və nəticə olmadan buna davam etmək imitasiyadan başqa bir şey deyil. Azərbaycan da öz inkişafı, beynəlxalq nüfuzu, intellekti, diplomatiyası və regiondakı liderlik missiyası ilə bu cür imitasiyaya nə layiq deyil, nə də özü bunu qəbul edən deyil.

Azərbaycan Prezidentinin müsahibələrindən müharibənin daha bir motivi kimi Ermənistanın təcavüzkarlığının həddi-hüdudunun olmamasıdır. "Münaqişə bölgəsinə yaxın yaşayan sıravi azərbaycanlıların 500-dən çox evi tamamilə dağıdılmışdır və ya onlara ziyan dəymişdir. Buna görə Ermənistan bu təcavüzkar hərəkətləri dayandırmalıdır, onlar qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını üzərlərinə öhdəlik götürməlidirlər. Onlar işğal olunmuş ərazilərdən qoşunların çıxarılması ilə bağlı vaxt cədvəlini bizə təqdim etməlidirlər. Onların "Qarabağ Ermənistandır" deyən baş naziri indi deməlidir ki, "Qarabağ Ermənistan deyil" və bundan sonra əlbəttə ki, biz bu düşmənçiliyə son qoymağa və atəşkəs rejimini bərpa etməyə hazır olacağıq"- deyə, İlham Əliyev faktlar fonunda Ermənistanın məsuliyyətini və danışıqları pozmaq cəhdlərini auditoriyaya çatdırır.

Ermənistanın işğalçılıq siyasətinin və Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda mübarizəsinin qolları çox uzaqlara gedib çıxır. Ermənistana havadarlıq edən dövlətlərdən birinin, Fransanın prezidenti Emmanuel Makron Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib hökmlə erməniləri müdafiə edəcəyini bildirir. O, özünü Qafqazın hakimi kimi aparır. Amma Azərbaycanın dövlət başçısı cəsarətlə onu da ifşa edir və xəbərdarlıq da edir ki, bizimlə bu dildə danışmaq olmaz: "Son on gün ərzində, ötən həftə Fransa Prezidenti mənə iki dəfə telefon zəngi edib. Mən ona dedim ki, bizə dəlil verin. Bizim ərazimizdə guya suriyalı döyüşçülərin olmasına dair heç bir dəlil yoxdur. O, mənə sentyabrın 27-də zəng edəndə mən ondan soruşdum və o vaxtdan bu yana məndə heç bir dəlil yoxdur. Əgər belə dəlilləri varsa, niyə bizə təqdim etmədilər? Sonra o, mənə bir neçə gün əvvəl zəng edəndə bu məsələni yenidən qaldırdı. Dedi ki, onlarda kəşfiyyat məlumatı var. Mən dedim onu bizimlə paylaşın. Heç bir dəlil və sübut təqdim etmədən ölkəni ittiham etmək doğru deyil və bu gün mən bu qəbuledilməz ittihamla bağlı Fransadan bir dəlil belə almamışam. Azərbaycan torpağında əcnəbi döyüşçülər yoxdur və mən Fransa Prezidentinə dedim ki, bizim ordumuz demək olar ki, yüz min nəfərdən ibarətdir. Bizim indi döyüş zonasında etdiyimiz internetdə göstərilir. Bizim müasir dronlarımızın erməni tanklarını və hava hücumuna qarşı sistemlərini necə dağıtdığını hər kəs görə bilər. Ordumuz bir kəndin ardınca o birini azad edir. Uzun illər ərzində işğal altında olan torpaqlarda bayrağımız qaldırılır. Beləliklə, bu ittihamlar tamamilə əsassızdır".

Açığı, Azərbaycan Prezidentinin müsahibələri arüumentliliyi və əsaslandırılması ilə seçilir və müharibənin bütün aspektləri üzrə açıq-aydın, faktiki dəlillərlə təcavüzkarı ifşa edir. Bu cür əsaslandır oxucuya Azərbaycanın haqlı olmasını təlqin edir, çünki, qaranlıq məsələlər işıq saçır. Haqq nazilsə də heç vaxt üzülmür. Nücə ki, 30 il səbr edən Azərbaycan xalqı, onun dövləti və prezidenti nəhayət böyük güc toplayaraq müqəddəs Qarabağ torpağını azad etmək üçün son döyüşə atılıb.

***N.NOVRUZ***